

# Türkiyəli şagirdlər Azərbaycanda

Türkiyə Respublikasının İstanbul, İzmir, Bursa, Ankara, Adana və Çanaqqala şəhərlərinin 9-11-ci sinif şagirdləri və müəllimlərdən ibarət nümayəndə heyəti Azərbaycanda səfərdədir.

Səfər çərçivəsində nümayəndə heyəti iyunun 23-də Fəxri xiyabana gedərək ümummilli lider Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə gül dəstələri qoyub. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı ziyarət olunub. Sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə şəhid olanların xatirəsi anılıb, məzarları üzərinə qərənfillər düzülüb. Həmçinin Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk şəhidliyi" abidəsi ziyarət edilib.

Daha sonra qonaqlar Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində olub, mərkəzin fəaliyyəti haqqında məlumatlandırılıb.

Həmin gün nümayəndə heyəti həmçinin Heydər Əliyev Mərkəzini də ziyarət edib.

İyunun 24-də qonaqlar Heydər Əliyev adına Müasir Təhsil Kompleksində (MTK) şagirdlər üçün yaradılan şəraitlə tanış olub. Burada qonaqlar üçün 44 günlük Vətən müharibəsi və Türkiyə-Azərbaycan qardaşlığını əks etdirən videoçarx nümayiş etdirilib.

Daha sonra MTK və türk şagirdlərindən ibarət komandalar arasında intellektual oyun keçirilib.

Həmin gün nümayəndə heyəti Hərbi Qənimətlər Parkı, həmçinin İçərişəhər Tarixi-Memarlıq Qoruğu ilə də tanış olub.





